

# BU ADI YADDA SAXLAYIN: GÜNEL ŞAMİLQIZI

Vaqif Yusifli

**"Dünyanın ən böyük həzzini sübh namazının səcdəsində olarkən duyuram. Bu duyğunu sözlə ifadə etmək qeyri-mümkündür. Mən səhərlər əsəbiləşməyi, gündüzlər sevinməyi, axşamlar müdrikləşməyi, gecələr ağlamağı bacarıram. Hər kəsin öz qorxuları var-kimi qaranlıqdan, kimi hündürlükdən qorxur. Mən ağaclardan qorxuram. Ağacların göyə uzanmış əlləri və Tanrıya necə dua etdiklərini görəndə insanlara yazığım gəlir"**

2010-cu ildə, "Ulduz"un noyabr sayında Günel Şamilqızının (o zaman 22 yaşı vardı) "Tərcümeyi-halı və şeirləri" ilə tanış oldum. Yuxarıda misal gətirdiyim parça Günelin özü barədə yazdığı tərcümeyi-halındandır. Və hiss olunur ki, bu sətirləri ancaq ŞAİR qələmə ala bilər.

Və onun şeirlərini birnəfəsə oxudum. "Kim istəsə ki, kağız üzərində də, yazdığı şeirlərdə də şairliyi görünsün, o gərək əvvəlcə qəlbən şair olsun və təbiətinə uyğun olaraq, həyatın poetik tərəfini görsün" (Belinski). Günelin- o zamankı iyirmi iki yaşlı qızın şeirlərində də onun şairliyi, həyatın poetik tərəfini görməyi hiss edilirdi.

Müasir Azərbaycan şeirində sözə münasibətdə iki halı müşahidə edirik, ya sözlər öz adi, "normal" vəziyyətində, heç bir poetik məna kəsb etməyən durumu ilə sıralanır, ya da sözlər ehya olunur, ŞEİR dediyimiz bir varlıq dünyaya gəlir və sözlərin poetik məna kəsb etdiyi bir məcraya qoşulur. Günel Şamilqızının bir neçə şeiri var ki, bu şeirlər sözlərin şeirə, şeirin də poeziyaya çevrilməsini əks etdirir. "Paltar", "Quyu", "Divar", "Qapı-2009", "Lal tülkünün mahnısı", "Həvva sevgisi"- bu şeirlər göstərir ki, Günel sözlərə poetik məna statusu qazandırmağı bacarır. Daha çox əşyaları, müxtəlif predmetləri yenidən "dilləndirir". Adi bir divar təsəvvür edin.

**Bütün dağılmışlar kimi**
**Yavaş-yavaş dağılacaq.**
**Otağımın gözü divar,**
**Dərdlərimə yıxılacaq.**

**Karlıq əlçatmaz arzusu,**
**Lallıq ən böyük dərdidir.**
**Hər nə olsa da mənimçün**
**Divarların ən sərtidir.**

Bu iki bənd hələlik divarın zahiri görünüşünün təsviridir. Amma sonra insanla divar arasında mərhəm bir münasibət göz önünə gəlir və şeirdən belə bir məna hasil olur ki, sən demə, o lal divar insanın mənəvi istinadgahı imiş. İndi isə çat verir. Niyə? Çünki:

**Göz yaşlarım hopub ona,**
**Canım divar, gözüm divar!**
**Çatlarına baxa-baxa,**
**Yanım divar, Dözüm divar.**

**Gəl, məni dinləmə daha,**
**Çalışıb az göynəyərəm.**
**Özüm yıxılsam cəhənnəm,**
**Sən yıxılsan neyləyərəm?**

**Bir ağır peşəymiş peşən,**
**Bunca dərd saxlamaq çətin.**
**Mənə qucaq açan divar,**
**Səni qucaqlamaq çətin.**

Şeir buradaca bitə bilərdi. Amma insan və divar sevgisi sonda belə tamamlanır:

**Bəlkə də dinirsən, dostum,**
**Mən də bir ayrı cür karam.**
**O çatları mən vurmuşam,**
**Əfv et, əfv et, günahkaram.**

Şeir bitir və qarşımızda uçulmağa məhkum bir divar və o divarın qarşısında günahkar insan canlanır.

Rəşad Məcid yazır ki, gözəl şairimiz Ramiz Rövşən Günelin şeirlərini tərifləyib, qadın şairlərin sırasına yeni, istedadlı bir şairin gəldiyini fərəhlə söyləyib. Hələ bu azmış kimi, Günel Şamilqızının misralarından əzbər də söyləyib:

**Mənim stolumun üç ayağı var,**
**Üçü də istəmir dördüncü olsun.**

Yaxud

**Xörəyi nimçədə soyuyan durnam,**
**Ya ac qal, ya sındır öz dimdiyini.**

Günelin şeirlərində belə obrazlı ifadələr, sözlərin qeyri-adi mənalarına varan misallar az deyil. Bunlar isə öz-özünə yaranmır, çünki Günel dünyaya, həyata, hər bir hadisəyə, predmetə "gördüyümüzdən artıq görmək istəməsək" (Rəsul Rza) prinsipi ilə yanaşır, təbii ki, burada poetik istedadın da rolu birincidir. Hərçənd , onun bəzi şeirləri barədə bu fikri söyləməyə çətinlik çəkirik. Şeir təbii hisslərdən, daha doğrusu, yaşanılan hisslərdən yaranırsa, o şeir "quraşdırılmırsa", hansısa bir "fikir oyununa" çevrilmirsə, onun ömrü də uzun olur. Günelin "Adsız" şeiri məhz "fikir oyunu" üzərində qurulub, hiss olunur ki, müəllif "adsız" məfhumu ilə bağlı nəsə anlatmaq istəyir, amma o şeirdə müxtəlif anlayışlar bir-birinin əl-ayağına dolaşır.. "Quş" şeiri ilə "Adsız"ı müqayisə eləyəndə fərq dərhal nəzərə çarpır.

**Səni ulduz sandılar,**
**Əridin, itdin, ay quş.**
**Göründüyündəın gözəl,**
**Ola bilmədin, ay quş.**

**Qanadına xal düşür,**
**Hamı deyir ləkədi.**
**Dimdiyini açma heç,**
**Bu dünya bir tikədi.**

**Axı, sənin ac arzun,**
**Burda olmaz çin, quşum.**
**Qarğaya bənziəyirsən,**
**Mənim göyərçin quşum.**

**Uç get, qanadlı gözəl,**
**Bu yer tanımır səni.**
**Tanısa, göy tanıyar,**
**O da qınamır səni.**

Günel 2010-cu ildən bəri dərc etdirdiyi şeirlərin əksəriyyətini yenidən oxuculara təqdim edir ("Ədəbiyyat qəzeti"nin 19 mart 2016-cı il sayında da təzə şeir görmədik). Biz isə onun təzə şeirlərini oxumaq istərdik.